UOT32

# AZƏRBAYCAN RESPUBLİKASI-GÜRCÜSTAN TƏHSİL ƏLAQƏLƏRİ VƏ GÜRCÜSTANDAKI AZƏRBAYCANDİLLİ MƏKTƏBLƏR

**S.İ.Həbibbəyli**
(AMEA-nın akademiki T.H.Kərimli tərəfindən təqdim edilmişdir)

***Açar sözlər:*** *Azərbaycan Respublikası, Gürcüstan, təhsil əlaqələri, strateji əməkdaşlıq*

*Azərbaycan Respublikası və Gürcüstanın dövlət müstəqilliklərinin bərpasından sonra bütün sahələr kimi təhsil sahəsində də qarşılıqlı əməkdaşlığın qurulmasına xüsusi əhəmiyyət verilirdi. İki müstəqil dövlət kimi diplomatik əlaqələrin qurulduğu ilk vaxtlardan etibarən təhsil sahəsində əməkdaşlığa dair müzakirələr aparılır, hüquqi bazanın yaradılması, münasibətlərin möhkəmləndirilməsi və inkişafı üçün addımlar atılırdı.*

*Təhsil və elmi-texniki sahələrdəki münasibətlərin hüquqi bazasını 1993-cü ildə imzalanmış Dostluq, əməkdaşlıq və qarşılıqlı təhlükəsizliyin möhkəmləndirilməsi haqqında müqavilə, Azərbaycan Respublikası Hökuməti ilə Gürcüstan Respublikası Hökuməti arasında mədəni, elmi və humanitar əlaqələr haqqında saziş, 1996-cı ildə imzalanmış Azərbaycan Respublikası ilə Gürcüstan arasında dostluq, əməkdaşlıq və qarşılıqlı təhlükəsizliyin möhkəmləndirilməsi haqqında müqavilə, 1997-ci ildə imzalanmış Azərbaycan Respublikasının Hökuməti və Gürcüstan Hökuməti arasında elmi-texniki əməkdaşlıq, təhsil sahəsində əməkdaşlıq, yüksəkixtisaslı elmi və elmi-pedaqoji kadrların attestasiyası sahəsində əməkdaşlıq haqqında saziş, 2004-cü ildə imzalanmış Azərbaycan Respublikası Təhsil Nazirliyi və Gürcüstan Təhsil və Elm Nazirliyi arasında təhsil sahəsində əməkdaşlıq haqqında saziş təşkil edir.*

*Azərbaycan Respublikası-Gürcüstan əlaqələri təhsil sahəsində çox uğurla inkişaf etdirildi və bu proses bu gün də davam etməkdədir. Qarşılıqlı səfərlər öz bəhrəsini verdi, faydalı qarşılıqlı əməkdaşlığa nail olundu. Gürcüstanda fəaliyyət göstərən azərbaycandilli məktəblərdəki problemlərin həlli istiqamətində əhəmiyyətli işlər görüldü, azərbaycanlı əhalinin Gürcüstanın ictimai-siyasi həyatına inteqrasiyası üçün olduqca vacib olan təhsil səviyyəsinin yüksəldilməsini hədəfləyən tədbirlər nəticəsində müsbət nəticələr əldə edildi, həmçinin qarşılıqlı tələbə mübadiləsinə nail olundu. Bu prosesdə ilbəil artım müşahidə edilməkdədir.*

*Əldə edilmiş uğurlara baxmayaraq, azərbaycandilli məktəblərin problemləri yox deyil. Bu məktəblərin sayının azalması, pedaqoji heyətin yaş həddinin yuxarı olması, gənc kadrların çatışmazlığı və s. bu məsələnin problemli tərəfləridir. Gürcüstanda təhsil almış, Azərbaycan dili ilə yanaşı, dövlət dilini də yüksək səviyyədə bilən gənc kadrları bu sahəyə cəlb etməklə problemlərin müəyyən qədər aradan qaldırılmasına nail olmaq olar. Həmçinin qoyulan investisiyalardan səmərəli istifadə edilməsi, nəzəri və praktiki biliklərin qarşılıqlı alış-verişi, tələbə mübadiləsinin genişləndirilməsi münasibətlərin daha da möhkəmləndirilməsinə və inkişafına şərait yaradacaq.*

***Açar sözlər:*** *Azərbaycan Respublikası, Gürcüstan, diplomatik münasibətlər, təhsil əlaqələri, strateji əməkdaşlıq*

Dövlət müstəqilliyinin bərpasından sonra qonşu ölkələrlə faydalı qarşılıqlı əməkdaşlığın qurulması Azərbaycan Respublikasının xarici siyasətinin əsas istiqamətlərindən birinə çevrildi. Bu baxımdan Gürcüstan ilə qurulan münasibətlər prioritet istiqamət hesab edilirdi. İki dövlət arasında bütün sahələr kimi təhsil sahəsində tərəfdaşlığın inkişafına xüsusi əhəmiyyət verilirdi. Əlaqələrin bərpa olunduğu ilk vaxtlardan etibarən bu sahələrdə əməkdaşlığa dair müzakirələr aparılır, hüquqi bazanın yaradılması, münasibətlərin möhkəmləndirilməsi və inkişafı üçün addımlar atılırdı.

Məlum olduğu kimi hər iki dövlət uzun müddət SSRİ-nin tərkibində olduğundan bu sahədə güclü işbirliyi mövcud olmuşdur, hər iki dövlətin bu sahələrdəki maddi-texniki bazaları, təhsil sistemi bir-birinə oxşayırdı.

Təhsil və elmi-texniki sahələrdəki münasibətlərin hüquqi bazasını 1993-cü ildə imzalanmış Dostluq, əməkdaşlıq və qarşılıqlı təhlükəsizliyin möhkəmləndirilməsi haqqında müqavilə, Azərbaycan Respublikası Hökuməti ilə Gürcüstan Respublikası Hökuməti arasında mədəni, elmi və humanitar əlaqələr haqqında saziş, 1996-cı ildə imzalanmış Azərbaycan Respublikası ilə Gürcüstan arasında dostluq, əməkdaşlıq və qarşılıqlı təhlükəsizliyin möhkəmləndirilməsi haqqında müqavilə, 1997-ci ildə imzalanmış Azərbaycan Respublikası Hökuməti və Gürcüstan Hökuməti arasında elmi-texniki əməkdaşlıq, təhsil sahəsində əməkdaşlıq, yüksəkixtisaslı elmi və elmi-pedaqoji kadrların attestasiyası sahəsində əməkdaşlıq haqqında saziş, 2004-cü ildə imzalanmış Azərbaycan Respublikası Təhsil Nazirliyi və Gürcüstan Təhsil və Elm Nazirliyi arasında təhsil sahəsində əməkdaşlıq haqqında saziş təşkil edir.

Hər iki ölkənin dövlət müstəqilliyinin bərpasından sonra bütün sahələrdə qurulan əməkdaşlıq təhsil sahəsində də özünü göstərdi. Əlaqələrin bərpa olunduğu ilk vaxtlardan etibarən bu sahələrdə əməkdaşlığa aid müzakirələr aparılır, hüquqi bazanın yaradılması, münasibətlərin möhkəmləndirilməsi və inkişafı üçün addımlar atılırdı. 1993-cü ilin fevralında həmin tarixdə Gürcüstan Ali Sovetinin Sədri Eduard Şevardnadzenin Azərbaycana rəsmi səfəri zamanı imzalanmış Dostluq, əməkdaşlıq və qarşılıqlı təhlükəsizliyin möhkəmləndirilməsi haqqında 26 banddən ibarət müqavilənin 2, 10, 13, 15, 16 bəndlərində elmi-texniki, mədəni-humanitar əlaqələrin inkişafı və təcrübə mübadiləsinə dair öhdəliklər əks olunmuşdu. Həmin səfər zamanı, həmçinin Azərbaycan Respublikası Hökuməti ilə Gürcüstan Respublikası Hökuməti arasında mədəni, elmi və humanitar əlaqələr haqqında saziş imzalanmışdı. [2]

1993-cü ildə Ulu öndər Heydər Əliyevin Azərbaycan Respublikasının Prezidenti seçilməsindən sonra dövlət quruculuğu sahəsində ardıcıl, məqsədyönlü addımlar atılmağa başlanıldı, Azərbaycan Respublikasının xarici siyasətinin prioritet istiqamətləri müəyyənləşdirildi. Heydər Əliyev Prezident seçildikdən sonra keçirilmiş andiçmə mərasimindəki nitqində ölkənin xarici siyasətinin başlıca məqsədinin Azərbaycanın dövlət müstəqilliyinin təmin edilməsinə yönəldilməli olduğunu, bütün dünya dövlətləri ilə qarşılıqlı faydalı əlaqələrin yaradılması və inkişaf etdirilməsi, bu əlaqələrdən həm Azərbaycan Respublikasının beynəlxalq mövqelərinin möhkəmləndirilməsi üçün, həm də respublikanın iqtisadiyyatının, elminin, mədəniyyətinin inkişaf etdirilməsi üçün səmərəli istifadə edilməkdən ibarət olduğunu söylədi. [12, s.132] Bu çıxış, Heydər Əliyevin Azərbaycan elminin və mədəniyyətinin inkişafına nə qədər əhəmiyyət verdiyini göstərirdi. Gürcüstan ilə münasibətlərin yaxşılaşdırılması da Heydər Əliyevin yürütdüyü xarici siyasətin əhəmiyyətli qollarından biri idi. Müstəqilliyin ilk illərində iki ölkə arasındakı münasibətlər ən əsas siyasi və iqtisadi əlaqələrin sahmana salınmasına yönəldilmişdi. 1996-cı ildə Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Gürcüstana səfərindən sonra ölkələr arasındakı münasibətlər yeni səviyyəyə yüksəldi. İki dövlət arasındakı münasibətlərin ayrı-ayrı sahələrindəki əlaqələrin inkişafı və genişlənməsi üçün qarşılıqlı səfərlər gerçəkləşdirildi, mühüm hüquqi-normativ sənədlər imzalandı, əməli addımlar atıldı. Sözügedən səfər zamanı Azərbaycan Respublikası ilə Gürcüstan arasında bağlanılmış dostluq, əməkdaşlıq və qarşılıqlı təhlükəsizliyin möhkəmləndirilməsi haqqında müqavilədə mədəni

münasibətlərin yaxşılaşdırılmasına dair öhdəliklər öz əksini tapmışdı.

Elmi-texniki, mədəni-humanitar sahələrdə münasibətlərin inkişafı qarşılıqlı səfərlərin gündəliyində də mühüm istiqamətə çevrildi. Təsadüfi deyil ki, 1996-cı ilin noyabrında keçirilmiş böyük Azərbaycan şairi Məhəmməd Füzulinin 500 illik yubiley tədbirində Gürcüstan dövləti parlament sədri Z.Jivaniya səviyyəsində təmsil olunmuşdu. [8]

1997-ci ilin fevralında Eduard Şevardnadzenin Azərbaycana rəsmi səfəri çərçivəsində Bakıda Azərbaycan Respublikası Hökuməti və Gürcüstan Hökuməti arasında elmi-texniki əməkdaşlıq, mədəniyyət və təhsil sahələrində əməkdaşlıq haqqında sazişlər imzalandı. [2] Bu sazişlər iki dövlət arasındakı elmi-texniki, mədəni-humanitar sahələrdə münasibətlərin inkişafına güclü təkan verdi.

İlham Əliyevin Azərbaycan Respublikasının Prezidenti seçilməsindən sonra iki ölkə arasında bütün sahələrdə qurulan əməkdaşlıq daha yüksək inkişaf mərhələsinə qədəm qoydu. Bu münasibətlər strateji əməkdaşlıq kimi səciyyələndirilirdi. Gürcüstan tərəfi də bu münasibətlərin möhkəmləndirilməsində maraqlı idi. Gürcüstan Prezidenti Mixail Saakaşvili 2004-cü ilin martın 4-də Azərbaycana rəsmi səfəri zamanı münasibətlərin yeni məzmunla zənginləşdiyini bildirərək, bütün sahələrdə əlaqələrin daha da möhkəmləndirilməli olduğunu qeyd etmişdi. Səfər çərçivəsində təhsil sahəsində əməkdaşlıq haqqında sazişin imzalanması bu sahədə olan əlaqələrin möhkəmləndirilməsi üçün münbit şərait yaradırdı.

2004-cü il aprelin 16-17-də Gürcüstanın Təhsil naziri A.Lomaya QDİƏT təhsil nazirlərinin iclasında iştirak etmək məqsədilə Azərbaycana səfər etdi, 17 apreldə Qax, Balakən və Zaqatalada gürcüdilli məktəblərdə oldu.

2004-cü il iyunun 14-15-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Gürcüstana rəsmi səfəri baş tutdu. Geniş nümayəndə heyəti ilə həyata keçirilmiş səfər zamanı bir sıra sahələrdə ikitərəfli əlaqələrin inkişafına dair əməli addımların atılması üçün razılıq əldə edildi.

Azərbaycan Respublikası Gürcüstan ilə diplomatik münasibətlərin qurulduğu ilk gündən indiyə qədər ikitərəfli münasibətlərin inkişafına əhəmiyyət verdiyi qədər, dövlət mənafeyinin qorunması məsələlərinə yüksək həssaslıqla yanaşır. 2004-cü ildə Azərbaycan Respublikasının Gürcüstandakı səfirliyinə Gürcüstanın elm və təhsil nazirinin müavini B.Tsipuria imzası ilə daxil olmuş məktubda Qax, Zaqatala, Balakən rayonlarının "Sainqilo", "Gürcüstanın tarixi guşəsi" adlandırılması Azərbaycanın haqlı qəzəbinə səbəb olmuşdu. Bu səbəbdən həmin ilin noyabrın 25-də Azərbaycanın Gürcüstandakı səfirliyinin əməkdaşı B.Tsipuria ilə görüşdü, Qax, Zaqatala, Balakən rayonlarının "Sainqilo", "Gürcüstanın tarixi guşəsi" adlandırılması ilə bağlı Azərbaycan tərəfinin iradını bildirdi, bu kimi səhvlərə yol verilməməsini xahiş etdi. B.Tsipuria iradları qəbul etdiyini və bu kimi anlaşılmazlıqların təkrar olunmayacağını qeyd etdi. [1, s.226]

Müstəqil dövlətlər kimi Azərbaycan və Gürcüstan təhsil əlaqələrinin inkişafını hər zaman göz önündə saxlayır. Bu əlaqələrin intensivliyinin əsas səbəblərindən biri Gürcüstanda yaşayan azərbaycanlılardır. Məlumdur ki, bu ölkədə rəsmi mənbələrə əsasən, 300000-ə qədər azərbaycanlı öz tarixi torpaqlarında yaşayır. Bu əhali öz dilini, adət-ənənələrini, dinini hazırda da qoruyub saxlamaqdadır. Azərbaycanlıların əksəriyyəti azərbaycandilli məktəblərdə təhsil alır. SSRİ-nin dağılmasından sonra Gürcüstanda fəaliyyət göstərən azərbaycandilli məktəblərdə kəskin maddi-texniki baza çatışmazlığı müşahidə olunurdu. Tədris vəsaitlərinin olmaması dərslərin lazımi səviyyədə keçirilməsinə ən böyük əngəl idi. Hələ 1994-cü ildə Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin göstərişi ilə Gürcüstanın azərbaycandilli məktəblərinin dərs vəsaitləri ilə təmin olunmasına başlanılmışdı. Bu addım həm Gürcüstanın azərbaycanlı əhalisinin təhsil prosesindən kənarda qalmaması üçün olduqca əhəmiyyətli idi, həm də Gürcüstan hökumətini təhsil xərclərinin bir qismindən azad etməklə Gürcüstan iqtisadiyyatına verilən dəstək hesab oluna bilərdi. Bu proses sonrakı illərdə də davam etdirildi. 2004-cü il sentyabrın 27-28-də Azərbaycan Respublikasının Təhsil naziri M.Mərdanov Gürcüstanda fəaliyyət göstərən azərbaycandilli məktəblərə

61 707 nüsxə dərsliyin verilməsi məqsədilə Gürcüstanda səfərdə oldu.

Həmin ilin oktyabrın 15-də Şəmkir rayonunun rəhbərliyi Gürcüstanın Dmanisi rayonunda Hamamlı orta məktəbinə, Qardabani şəhərində İ.İsmayılzadə adına 6 nömrəli məktəbə və Rustavidə 12 nömrəli beynəlmiləl məktəbə dərslik və maddi yardım göndərdi. Noyabr ayında isə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırığı ilə Şəmkir rayon rəhbərliyinin nümayəndələri Qardabani rayonunda Nəzərli və Candar orta məktəblərində oldu, yuxarı sinif şagirdləri üçün dərslik və digər məktəb ləvazimatları apardılar. Şəmkir rayon İcra Hakimiyyəti başçısının müavini H.İsmayılov gətirdikləri dərslik və maddi yardımı məktəblərə təqdim etdi.

Dekabr ayında Şəmkir rayonundan Gürcüstanın Qardabani rayonundakı 1500 şagirdin təhsil aldığı Nəzərli kənd orta məktəbinin yuxarı sinif şagirdləri üçün dərsliklər, eləcə də H.Əliyev və İ.Əliyev haqqında kitablar göndərildi. Həmçinin Tbilisidəki 64 nömrəli orta məktəbin Azərbaycan bölməsinin rəhbəri G.Ağayevanın Şəmkir rayon İcra Hakimiyyətinə göndərdiyi müraciət müsbət qarşılandı. Müvafiq qurum tərəfindən bu məktəbə dərsliklər, yazı ləvazimatı çatdırıldı. Azərbaycandilli məktəblər Azərbaycan Respublikasının Gürcüstandakı səfirliyinin də daim diqqət mərkəzində olmuşdur. 2004-cü ilin dekabrında səfirlik tərəfindən Qardabani rayonundakı Kosalı kənd orta məktəbinə 1 ədəd, Marneuli rayonunun Sadaxlı və Bolnisi rayonunun Arıxlı kəndindəki orta məktəblərinin hərəsinə 2 ədəd kompüter dəsti hədiyyə edildi.

Orta təhsillə yanaşı, ali təhsil sahəsində də qarşılıqlı əməkdaşlıq müşahidə olunurdu. 2004-cü il dekabrın 11-də Azərbaycan İngilis Dili Müəllimləri Birliyi "İngilis dili müəllimləri şəbəkəsinin ikinci seminarı" regional layihəsi çərçivəsində Tbilisidə məşğələlər keçirdi.

Qarşılıqlı kitab mübadiləsi sonrakı illərdə də davam etdirildi. Gürcüstan dövləti tərəfindən Azərbaycanın Zaqatala, Balakən rayonlarında yaşayan gürcüdilli şagirdlər üçün dərs vəsaitləri göndərilirdi. Gürcüstanın Təhsil və elm naziri Aleksandr Lomayanın başçılıq etdiyi nümayəndə heyəti 2006-cı il mayın 23-də Balakən rayonunun ingiloyların yaşadığı İtitala kəndində oldu. Gürcüstanlı qonaqlar burada kənd orta məktəbinin müəllim və şagird kollektivi ilə görüşdü, məktəbin gürcü dili bölməsində təhsil alan şagirdlər üçün gətirdikləri humanitar yardımı – məktəb ləvazimatını və dərslikləri pedaqoji kollektivə təhvil verdilər. [10]

2008-ci il 27-28 oktyabr tarixlərində Gürcüstanın Təhsil və elm naziri G. Nodiyanın rəhbərlik etdiyi nümayəndə heyəti Balakən, Zaqatala və Qax rayonlarının ingiloylar yaşayan kəndlərində oldu və tədrisi gürcü dilində olan məktəblərində müəllim və şagirdlərlə görüşlər keçirdi. Ümumiyyətlə, səfər zamanı bu rayonların məktəblərinə 5600 nüsxə dərslik hədiyyə edildi.

Heydər Əliyev Fondu tərəfindən təhsil sahəsindəki əlaqələrin inkişafı üçün təqdirəlayiq işlər görülür, irimiqyaslı layihələr həyata keçirilir. 2007-ci ildə Gürcüstanın Dmanisi şəhərində Heydər Əliyev Fondu tərəfindən kompyuter-tədris mərkəzi inşa olunmağa başlandı, 2008-ci il iyunun 15-də istifadəyə verildi. Müasir infrastruktur və maddi-texniki bazaya malik bu mərkəz həm azərbaycanlı, həm də gürcü gənclərin müasir tələblərə cavab verən təhsil almaqarı baxımından olduqca əhəmiyyətlidir. [9]

2009-cu il ölkələrarası təhsil əlaqələrinin inkişafı baxımından olduqca məhsuldar hesab edilə bilər. Azərbaycan Respublikasının Təhsil naziri, professor Misir Mərdanovun rəhbərlik etdiyi nümayəndə heyəti noyabrın 24-25-də Gürcüstanda iki günlük səfərdə oldu. Təhsil Nazirliyinin şöbə müdirləri İlham Mustafayev, Faiq Şahbazlı, Təhsil Problemləri İnstitutunun direktoru Abdulla Mehrabov, Qax Rayon Təhsil Şöbəsinin məsləhətçisi Şarmazi Tartaraşvili, Zaqatala rayon Əliabad qəsəbə 2 nömrəli orta məktəbinin direktoru Tərlan Rəcəbovun daxil olduğu nümayəndə heyəti Azərbaycan Respublikasının Gürcüstandakı Fövqəladə və səlahiyyətli səfiri Namiq Əliyev, Gürcüstanın Təhsil və elm naziri Nika Qvaramiya və nazirliyin əməkdaşları tərəfindən hava limanında qarşılandı. Gürcüstanın Təhsil və elm naziri Nika Qvaramiya Azərbaycan nümayəndə heyətini salamlayaraq ölkəsinin təhsil sistemi, burada

həyata keçirilən islahatlar barədə ətraflı məlumat verdi, Azərbaycan Respublikası tərəfindən Gürcüstana daim diqqətlə yanaşıldığının, Gürcüstandakı azərbaycandilli məktəblərin dərslik, dərs vəsaiti və digər tədris ləvazimatları ilə təminatına edilən köməyin, eləcə də Qax, Zaqatala və Balakən rayonlarının gürcüdilli məktəblərinə Azərbaycan dövləti tərəfindən həssas münasibətin Gürcüstan tərəfindən xüsusi qiymətləndirildiyini vurğuladı. O, qeyd etdi ki, bu hər iki ölkə başçısının apardığı siyasətin, dostluq və qarşılıqlı hörmətin bariz təzahürüdür. Azərbaycanın təhsil naziri, professor Misir Mərdanov gürcüstanlı həmkarına səmimi qarşılanmaya görə təşəkkürünü bildirərək Azərbaycanda bütün sahələrdə olduğu kimi, təhsil sahəsində də aparılan islahatlar, bu işin ilk nəticələri haqqında məlumat verdi. Nazir Gürcüstanın təhsil sistemində aparılan ciddi dəyişiklikləri yüksək qiymətləndirərək bu yolda Gürcüstan dövlətinə uğurlar arzuladı. Sonra Misir Mərdanov Gürcüstandakı Azərbaycan məktəblərinin problemləri barədə danışdı. O, Azərbaycan məktəblərinin sayının ilbəil azalmasından, bu məktəblərə Azərbaycan dilini bilməyən digər millətlərin nümayəndələrinin direktor təyin edilməsindən, bir sıra məktəblərdə ixtisaslı milli kadrların olmamasından, tədris proqramında gürcü dilinə ayrılan saatların azlığından, ali məktəblərdə azərbaycandilli kadr hazırlığının aparılmamasından, Gürcüstanda azərbaycandilli məktəblərdə işləyən müəllimlərin ixtisasartırma təhsili sahəsində iş aparılmamasından, Gürcüstanın Təhsil və Elm Nazirliyində azərbaycanlı mütəxəssislərin çalışmaması ilə bağlı azərbaycanlı müəllimlərin üzləşdiyi çətinliklərdən, Gürcüstanda azərbaycandilli məktəblərdə Azərbaycan tarixi və Azərbaycan coğrafiyası, eyni zamanda Azərbaycanda fəaliyyət göstərən gürcüdilli məktəblərdə Gürcüstan tarixi və Gürcüstan coğrafiyası fənlərinin tədris edilməməsindən, şagirdlərin dərsliklərlə təminatının qədərincə ödənilməməsindən və bu kimi məsələlərdən narahatlığını bildirdi, konkret təkliflərini səsləndirdi. Marneuli şəhəri 8 nömrəli orta məktəbinə gələn nazir Misir Mərdanov kollektivlə görüşərək onları dinlədi və işlərində uğurlar arzuladı. Nümayəndə heyəti Marneuli şəhərində yerləşən Heydər Əliyev adına Gürcüstan – Azərbaycan Humanitar Universitetinin müəllim və tələbələri ilə görüşü də maraqlı keçdi. Bu universitetin rəhbərliyi təhsil ocağının akkreditasiyası ilə bağlı məsələni hər iki nazirin diqqətinə çatdırdı və problemin həlli ilə əlaqədar köməklik göstərilməsini xahiş etdi.

Nazirlər və onları müşayiət edən heyət Qızılhacılı kənd əsas məktəbinə də gələrək burada görülmüş işlərlə yaxından tanış oldular.

Həmin gün Dmanisi rayonuna səfər edildi. Təlimi Azərbaycan dilində olan Donisi kənd əsas məktəbinin kollektivi ilə görüşən nümayəndə heyəti daha sonra Dmanisi şəhərində Heydər Əliyev Fondunun köməyilə yaradılan kompüter mərkəzində oldu. Bundan sonra təlimi gürcü dilində aparılan orta məktəbdə fəaliyyət göstərən gürcü dilinin intensiv tədris edildiyi Resurs Mərkəzində müəllimlərlə görüşən nazir Misir Mərdanov dinləyicilərə dövlət dilinin öyrənilməsinin əhəmiyyəti ilə bağlı fikirlərini bildirdi və öz tövsiyələrini verdi.

Azərbaycanın və Gürcüstanın təhsil nazirləri səfərin nəticələrindən məmnunluqlarını bildirərək gələcəkdə əməkdaşlığın və belə işgüzar səfərlərin faydalı olacağına əminliklərini ifadə etdilər. [14]

2009-cu ildə Gürcüstan azərbaycanlılarının Gürcüstan cəmiyyətinə inteqrasiyasına dəstək məqsədilə hazırlanmış tədbirlər planına uyğun olaraq 34 azərbaycandilli məktəbdə gürcü dili kursunun açılması ilə bağlı texniki-təşkilati məsələlər Azərbaycan dövləti tərəfindən həll edildi. Həmin ilə qədər 124 azərbaycandilli məktəbin 84-də müvafiq kurslar yaradılmışdı. [4, s. 228] Açılan bu kurslar qısa zamanda öz bəhrəsini verdi. Belə ki, əgər 2006-2007-ci tədris ilində Gürcüstanda fəaliyyət göstərən ali təhsil məktəblərinə keçirilmiş qəbul imtahanlarında iştirak etmiş azərbaycanlı abituriyentlərdən 20 nəfər tələbə adını qazanmışdısa, 2010-2011-ci tədris ilində bu rəqəm 485 nəfərə çatmışdı. [5, s.254]

2010-cu ildə Heydər Əliyev Fondunun təşəbbüsü və dəstəyi nəticəsində Tbilisi şəhərində dramaturgiyamızın banisi M.F.Axundzadənin adını daşıyan 73 saylı, Marneuli şəhərində 7 saylı, Qardabani şəhərində 3 saylı, Dmanisi ra-

yon mərkəzində 2 saylı məktəblər əsaslı şəkildə təmir olunub istifadəyə verildi. Həmin il Fond tərəfindən Qardabani rayonunun Qaracalar kənd orta məktəbi də əsaslı təmir olundu. 2011-ci ildə Bolnisi rayonunun Hasanxocalı və Cəfərli kəndlərində, Dmanisi rayonunun Kirovis kəndində müasir tipli yeni məktəb binaları tikildi. [13]

2011-ci il 17 iyun tarixində Gürcüstan Elm və Təhsil naziri D.Şaşkin Azərbaycana səfər etdi. Azərbaycan Dövlət Neft Şirkətinin Gürcüstan nümayəndəliyi də ölkələr arasındakı təhsil münasibətlərinin inkişafında böyük rol oynayırdı. 2011-ci ildə bu qurum tərəfindən Gürcüstanda 2 orta məktəb təmir olundu. [6, s.310]

ARDNŞ-nin Gürcüstan nümayəndəliyi tərəfindən mütəmadi olaraq Gürcüstanda yaşayan azərbaycanlıların dəstəklənməsi, gənclərin təhsilə olan meyillərinin stimullaşdırılması istiqamətində tədbirlər görülür. Təkcə 2012-ci il ərzində 447 ali məktəb və kollec tələbəsinin illik təhsil haqları nümayəndəlik tərəfindən maliyyələşdirildi, 205 əlaçı tələbəyə həvəsləndirici təqaüdlər verildi. [7, s.311] Bütün bu tədbirlər azərbaycandilli əhalinin təhsil səviyyəsinin yüksəldilməsi üçün olduqca əhəmiyyətli idi.

Sonrakı illərdə kitab mübadiləsi uğurla davam etdirildi. 2013-cü ildə Azərbaycan Respublikası Təhsil Nazirliyi tərəfindən Gürcüstanın azərbaycandilli məktəbləri üçün 28015 ədəd Azərbaycan dili və ədəbiyyatı dərslikləri göndərildi. [8, s.327]

2015-ci ili də münasibətlərin inkişafı baxımından səmərəli il kimi qiymətləndirmək olar. Oktyabrın 8-də Gürcüstanın Təhsil və elm naziri Tamar Sanikidzenin dəvəti ilə Azərbaycan Respublikasının Təhsil naziri Mikayıl Cabbarov Gürcüstana səfər etdi. İlk öncə Tbilisidə yerləşən Heydər Əliyev Parkını ziyarət edən təhsil naziri, daha sonra Gürcüstanın Təhsil və elm naziri Tamar Sanikidze ilə görüşdü. Görüşdə hər iki nazir Azərbaycanla Gürcüstan arasında əlaqələrin yüksək səviyyədə inkişafı və hər iki ölkə rəhbərliyinin qarşılıqlı əməkdaşlığın inkişaf etdirilməsində maraqlı olduqları haqqında həmfikir oldular.

Müzakirələr zamanı iki ölkə arasında təhsil sahəsində əlaqələrin mövcud vəziyyəti və gələcək inkişafı perspektivləri, təhsilin müxtəlif sahələri üzrə qarşılıqlı təcrübə mübadiləsi, ali təhsil sahəsində əməkdaşlıq, Gürcüstanda yaşayan azərbaycanlı icmasının təhsil problemləri və onların həlli istiqamətində səylərin artırılması, xüsusilə müəllim hazırlığı və məktəblərin Azərbaycan dili və ədəbiyyatı dərslikləri ilə təmin olunması kimi məsələlər müzakirə olundu.

Daha sonra Mikayıl Cabbarov azərbaycanlı icmasının təhsil aldığı M.F.Axundzadə adına Tbilisi şəhəri 73 saylı və 64 saylı orta məktəblərdə oldu, hər iki təhsil müəssisəsinin müəllim və şagird heyəti ilə görüşdü, onların vəziyyəti ilə maraqlandı. [15]

2018-ci il 18-20 aprel tarixlərində Gürcüstanın Təhsil və elm naziri Mixail Çxenkeli Universitet Prezidentləri Beynəlxalq Assosiasiyasının və Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin ev sahibliyi etdiyi ikigünlük "Qloballaşma və ali təhsildə yeni meyarlar" adlı yarımillik konfransında iştirak etmək üçün Bakıda işgüzar səfərdə oldu. [11] Azərbaycan Respublikası Təhsil naziri vəzifəsini müvəqqəti icra edən, nazir müavini Ceyhun Bayramov ilə qonşu ölkənin naziri arasında görüş keçirildi. Görüşdə iki ölkə arasında təhsil sahəsində əməkdaşlığın hazırkı vəziyyəti, həmçinin gələcək əməkdaşlıq imkanları müzakirə edildi, iki ölkənin ali təhsil müəssisələri arasında əlaqələrin gücləndirilməsi barədə fikir mübadiləsi aparıldı.

Göründüyü kimi, Azərbaycan-Gürcüstan əlaqələri təhsil sahəsində çox uğurla inkişaf etdirilmişdir. Qarşılıqlı səfərlər öz bəhrəsini vermiş, faydalı qarşılıqlı əməkdaşlığa nail olunmuşdur. Gürcüstanın azərbaycandilli məktəblərindəki problemlərin həlli istiqamətində əhəmiyyətli işlər görülmüş, azərbaycanlı əhalinin Gürcüstanın ictimai-siyasi həyatına inteqrasiyası üçün təhsil sahəsində xeyli irəliləyiş əldə edilmişdir. Eyni zamanda tələbə mübadiləsində ilbəil artım müşahidə edilir.

Əldə edilmiş uğurlara baxmayaraq azərbaycandilli məktəblərin problemləri hələ də yox deyil. Məktəblərin sayının azalması, pedaqoji heyətin yaş həddinin yuxarı olması, gənc kadrların çatışmazlığı və sayının aşağı düşməsi bu məsələnin problemli tərəfləridir. Xatırlatma

üçün qeyd edim ki, SSRİ dövründə Gürcüstanda 183 azərbaycandilli məktəb fəaliyyət göstərirdi. 1999-cu ilin statistikasına görə azərbaycandilli məktəblərin sayı 167-yə qədər azaldı. 2010-cu ildə bu məktəblərin sayı 124 idisə , 2018-ci ildə isə sadəcə 80 azərbaycandilli məktəb qalmışdır. [ 16]

Gürcüstanda təhsil almış, Azərbaycan dili ilə yanaşı, dövlət dilini də yüksək səviyyədə bilən gənc kadrları bu sahəyə cəlb etməklə problemlərin müəyyən mənada aradan qaldırılmasına nail olmaq olar. Həmçinin qoyulan investisiyalardan səmərəli istifadə, nəzəri və praktiki biliklərin qarşılıqlı alış-verişi, tələbə mübadiləsinin artırılması, əlaqələrin daha da genişləndirilməsinə imkan yaradacaq.

## ƏDƏBİYYAT

1. ARXİN hesabatları. 2004, 664 s., s.226
2. Azərbaycan Respublikası ilə Gürcüstan arasında imzalanmış sənədlərin siyahısı. file:///C:/Users/User/Downloads/kitab20100106041829229%20(3).pdf
3. Azərbaycan Respublikası ilə Gürcüstan arasında imzalanmış sənədlərin siyahısı. file:///C:/Users/User/Downloads/kitab20100106041829229%20(3).pdf
4. Azərbaycan Respublikası. Nazirlər Kabinetinin 2009-cu ilə aid hesabatı. Bakı, 2010, 459 s., s. 228
5. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu ilə aid hesabat. Bakı, 2011, 508 s., s. 254
6. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2011-ci ilə aid hesabatı. Bakı, 2012, 430 s., s. 310
7. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2012-ci ilə aid hesabatı. Bakı, 2013, 422 s., s. 311
8. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2013-cü ilə aid hesabatı. Bakı, 2014, 458 s., s. 327
9. Gürcüstanın Dmanisi rayonunda Kompüter-tədris mərkəzi, https://heydar-aliyev-foundation.org/az/content/view/72/2241/G%C3%BCrc%C3%BCstan%C4%B1n-Dmanisi-%C5%9F%C9%99h%C9%99rind%C9%99-kompyuter-t%C9%99dris-m%C9%99rk%C9%99zi
10. Gürcüstanın elm və təhsil naziri Balakəndə olmuşdur. 24.05.2006 [15:35 https://azertag.az/xeber/GURCUSTANIN_TAHSIL_VA_ELM_NAZIRI_BALAKANDA_OLMUSDUR-346125
11. Gürcüstanın Təhsil və elm naziri ilə görüş. 20.04.2018, https://edu.gov.az/az/page/9/14858
12. Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. I cild, Bakı: Azərnəşr, 1997, 612 s., s.132
13. Layihələr, https://heydar-aliyev-foundation.org/ az/ content/view/132/2180/ Bolnisi-rayonu-C%C9%99f%C9%99rli-k%C9%99nd-m%C9%99kt%C9%99bi
14. Təhsil naziri Gürcüstanda səfərdə olub. 04.12.2009. https://www.muallim.edu.az/www.old/arxiv/2009/47/47-05.htm
15. Təhsil naziri Mikayıl Cabbarov Gürcüstana səfər edib. http://zim.az/ttehsil/334-thsil-naziri-mikayl-cabbarov-grcstana-sfr-edib.html?fb_comment_id=935447869853697_944453142286503

*AMEA Qafqazşünaslıq İnstitutu*
*samira.habibbayli@gmail.com*

## THE REPUBLIC OF AZERBAIJAN-GEORGIA EDUCATIONAL RELATIONS AND AZERBAIJANI-LANGUAGE SCHOOLS IN GEORGIA

**S.I.Habıbbaylı**

After the restoration of state independence of the Republic of Azerbaijan and Georgia, special attention was paid to the establishment of cooperation in the field of education, as well as all other fields. From the very beginning of the establishment of diplomatic relations as two independent states, discussions were held around cooperation in the field of education, actions were taken to create a legal framework, strengthen and develop relations.

The legal basis of relations in the field of education and science and technology is the Agreement on Strengthening Friendship, Cooperation and Mutual Security signed in 1993, the Agreement between the Government of the Republic of Azerbaijan and the Government of the Republic of Georgia on Cultural, Scientific and Humanitarian Relations, the Agreement between the Republic of Azerbaijan and Georgia Agreement on strengthening friendship, cooperation and mutual security signed in 1996, Agreement between the Government of the Republic of Azerbaijan and the Government of Georgia on scientific and technical cooperation, cooperation in the field of education, cooperation in the field of certification of highly qualified scientific and scientific-pedagogical personnel signed in 1997, Agreement on cooperation in the field of education between the Ministry of Education of the Republic of Azerbaijan and the Ministry of Education and Science of Georgia signed in 2004.

The relations between the Republic of Azerbaijan and Georgia very successfully developed in the field of education, and this process is still in progress. Mutual visits gave its benefits and fruitful cooperation was achieved. Significant work has been done to solve the problems in Azerbaijani-language schools in Georgia, and positive results have

been achieved as a result of measures taken to raise the level of education, which is very important for the integration of the Azerbaijani population into the socio-political life of Georgia. Mutual student exchange was also achieved. Annual increase is observed in this process.

Despite the successes, some problems of Azerbaijani-language schools still persist. The decrease in the number of these schools, the higher age of the teaching staff, lack of young staff and so on. are problematic aspects of this issue. To some extent, it is possible to eliminate the problems by involving young resources who studied in Georgia and have a high level of state language skills as well as the Azerbaijani language. Also, the effective use of investments, the mutual exchange of theoretical and practical knowledge, the expansion of student exchange will create conditions for further strengthening and development of relations.

***Keywords:*** *Republic of Azerbaijan, Georgia, educational relations, strategic cooperation*

## ОБРАЗОВАТЕЛЬНЫЕ ОТНОШЕНИЯ РЕСПУБЛИКИ АЗЕРБАЙДЖАН – ГРУЗИИ И АЗЕРБАЙДЖАНОЯЗЫЧНЫЕ ШКОЛЫ В ГРУЗИИ

**С.И.Габиббейли**

После восстановления государственной независимости Азербайджанской Республики и Республики Грузия особое внимание было уделено установлению взаимного сотрудничества в области образования, как и во всех областях. С самого начала установления дипломатических отношений между двумя независимыми государствами велись дискуссии о сотрудничестве в области образования, предпринимались шаги по созданию правовой базы, укреп-лению и развитию отношений.

Правовой основой отношений в области образования, науки и техники являются Соглашение об укреплении дружбы, сотрудничества и взаимной безопасности, подписанное в 1993 году, Соглашение между Правительством Азербайджанской Республики и Правительством Республики Грузия о культурных, научных и гуманитарных отношениях, Соглашение между Азербайджанской Республикой и Грузией. Соглашение об укреплении дружбы, сотрудничества и взаимной безопасности, Соглашение между Правительством Азербайджанской Республики и Правительством Грузии о научно-техническом сотрудничестве, сотрудничестве в области образования, сотрудничестве в области аттестации высококвалифицированных научных и научно-педагогических кадров, подписанное в 2004 году. Министерство образования Азербайджанской Республики и Министерство образования и науки Грузии подписали соглашение о сотрудничестве в области образования.

Отношения между Азербайджанской Республикой и Грузией в сфере образования развились очень успешно и этот процесс продолжается и сегодня. Взаимные визиты принесли свои плоды и было достигнуто плодотворное сотрудничество. Была проделана значительная работа по решению проблем в азербайджаноязычных школах, функционирующих в Грузии, были достигнуты положительные результаты в результате мер, направленных на повышение уровня образования, которое очень важно для интеграции азербайджанского населения в общественно-политическую жизнь Грузии. Был также достигнут взаимный обмен студентами. В этом процессе наблюдается ежегодный рост.

Несмотря на достигнутые успехи, проблемы азербайджаноязычных школ не исчезли. Уменьшение количества этих школ, высокий возраст преподавательского состава, нехватка молодых кадров и т.п. являются проблемными аспектами этого вопроса. В некоторой степени можно устранить проблемы, привлекая молодых людей, которые учились в Грузии и, наряду с азербайджанским языком, имеют высокий уровень знания государственного языка. Также эффективное использование инвестиций, взаимный обмен теоретическими и практическими знаниями, расширение обмена студентами создаст условия для дальнейшего укрепления и развития отношений

***Ключевые слова:*** *Азербайджанская Республика, Грузия, образовательные отношения, стратегическое сотрудничество*